Azərbaycan Respublikasının vergilər nazirinin 10 may 2019-cu il tarixli 1917040100489400 nömrəli Əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Vergilər Nazirliyinin**
**İqtisadi təhlil departamentinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin (bundan sonra - nazirlik) struktur vahidi olan İqtisadi təhlil departamenti (bundan sonra - departament) vergi, habelə məcburi dövlət sosial sığorta haqları, işsizlikdən sığorta haqları və icbari tibbi sığorta haqları (bundan sonra – sığorta haqları) üzrə risklərin təhlili, onların minimallaşdırılması, habelə vergilərin və sığorta haqlarının vaxtında və tam məbləğdə müvafiq olaraq dövlət büdcəsinə, sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta fondlarına (bundan sonra aidiyyəti fondlar) köçürülməsi sahəsində (bundan sonra - müvafiq sahə) işləri təşkil edir, müvafiq sahədə fəaliyyətin effektivliyinə və qanunvericiliyə uyğun icrasına cavabdehdir və buna görə məsuliyyət daşıyır.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının “Sosial sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Tibbi sığorta haqqında” Qanunlarını, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2001- ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”ni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Kollegiya qərarlarını, Azərbaycan Respublikasının vergilər nazirinin əmrlərini, sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən nazirliyin digər struktur vahid və bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

2.0. Departamentin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. Vergi və sığorta haqları üzrə risklərin təhlili və onların minimallaşdırılması işlərini həyata keçirir;

2.0.2. Vergilərin və sığorta haqlarının vaxtında və tam məbləğdə müvafiq olaraq dövlət büdcəsinə və aidiyyəti fondlara köçürülməsi sahəsində işləri təşkil edir;

2.0.3. Bəyannamələrin və hesabatların elektron qaydada uyğunsuzluq yoxlamasından keçirilməsini, habelə kameral vergi yoxlamalarının aparılması işlərini təşkil edir və həmin işlərə nəzarət edir;

2.0.4. Müvafiq sahədə vergi siyasətinin formalaşmasında iştirak edir, bununla bağlı nazirliyin rəhbərliyinə təkliflər verir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.0.5. Müvafiq sahənin inkişafını təmin edir;
2.0.6. Müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirir.

## 3. Departamentin vəzifələri

3.0. Departament bu Əsasnamənin 2-ci hissəsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Büdcəyə daxil olan vergilər və sair daxilolmalar, habelə sığorta haqları üzrə daxilolmalar haqqında vergi orqanlarının məlumatlarını yerli xəzinədarlıq orqanlarının məlumatları ilə üzləşdirmək;

3.0.2. Vergiləri, habelə sığorta haqlarını və sair daxilolmaları ərazilərə, iri vergi ödəyicilərinə, mülkiyyət növlərinə və vergi ödənişlərinin təyinatına görə təhlil etmək;

3.0.3. Vergilər, habelə sığorta haqları üzrə proqnozlar və daxilolmalar ilə əlaqədar dövlət orqanlarına təqdim olunmalı məlumatların hazırlanması üçün müvafiq işlərin aparılmasını təmin etmək;

3.0.4. Sığorta haqları üzrə daxilolmalar, dövlət büdcəsinə hesablanmış və daxil olmuş vergilər və sair daxilolmalar barədə, habelə dövlət büdcəsinə ödəmələr üzrə proqnozun yerinə yetirilməsinin operativ təhlilini aparmaq;

3.0.5. “Tax Free” sisteminin tətbiqi ilə əlaqədar hər ay üzrə qaytarılmış ƏDV məbləği barədə rəyin növbəti ayın 5-dən gec olmayaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etmək;

3.0.6. Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması məqsədilə müvafiq dövrlər üzrə qaytarılmış ƏDV məbləği barədə rəyin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etmək;

3.0.7. Departamentin işi ilə bağlı vergi və digər orqanların məlumatlarına əsasən müxtəlif məlumat bazalarını yaratmaq, məlumatlar üzrə hesabat göstəriciləri sistemini, hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

3.0.8. Vergilər, habelə sığorta haqları üzrə proqnoz və daxilolmalar haqqında müvafiq məlumatların, habelə vergi nəzarəti tədbirləri və vergi cinayətləri üzrə dövlət büdcəsinə və aidiyyəti fondlara ödənilən vəsaitlər barədə məlumatları hazırlamaq və nazirliyin rəhbərliyinə təqdim etmək;

3.0.9. Vergitutma bazasının, vergi potensialının və büdcəyə daxilolmaların Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyəti səciyyələndirən makro və mikroiqtisadi göstəricilərlə müqayisə etməklə təhlilini aparmaq, vergilər, rüsumlar və sair daxilolmalar üzrə proqnozları hazırlamaq;

3.0.10. Ölkənin makro və mikroiqtisadi göstəricilərinin təhlili əsasında vergi potensialı və vergitutma bazası barədə nazirliyin rəhbərliyinə məlumat hazırlamaq;

3.0.11. İnzibati-ərazi vahidlərinin vergitutma bazası və vergi potensialını müəyyənləşdirməklə onları səciyyələndirən göstəricilər sistemini hazırlamaq, həmin sistem əsasında daxilolmaların dəyişməsinə təsir edən amilləri müəyyən edən hesablamaları aparmaq, habelə daxilolmaların vergi potensialına və vergitutma bazasına uyğunluğunu müəyyən etmək;

3.0.12. Dövlət büdcəsinə tədiyyələr, sektorlar üzrə vergi daxilolmaları proqnozunun yerinə yetirilməsinin təhlilini aparmaq və proqnozu yerinə yetirməyən vergi orqanları

barəsində qanunamüvafiq tədbirlərin görülməsi barədə nazirliyin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

3.0.13. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının növbəti illər üzrə dövlət büdcəsinin layihəsinin hazırlanması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim ediləcək məlumatları hazırlamaq;

3.0.14. Dövlət büdcəsi gəlirlərinin nazirlik tərəfindən təmin edilən daxilolmalarına dair zəruri məlumatları icmallaşdıraraq büdcə layihəsi barədə təklifləri hazırlamaq;

3.0.15. Ölkənin sosial-iqtisadi inkişafını və vergi daxilolmalarını xarakterizə edən müvafiq göstəriciləri mütəmadi olaraq hazırlamaq;

3.0.16. Vergi orqanları tərəfindən aparılmış müşahidələrdə qeydə alınmış malların (işlərin, xidmətlərin) orta bazar qiymətləri barədə AVİS-ə işlənilmiş məlumatların təhlilini aparmaq, informasiya bazasının məlumatlarının genişləndirilməsini təmin etmək;

3.0.17. Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyəti səciyyələndirən göstəricilərin müqayisəli təhlilini aparmaqla növbəti il üzrə sığorta haqları üzrə gəlirlərin göstəricilərinə uyğun olaraq proqnozu hazırlamaq;

3.0.18. Dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satınalınma müqavilələri ilə bağlı məlumatları təhlil etmək və riskləri müəyyən edərək vergidən yayınmaya şərait yaradan hallarla bağlı aşkar edilmiş kənarlaşmalar üzrə zəruri tədbirlərin görülməsi üçün nəzarət işlərini təşkil etmək;

3.0.19. ƏDV sub-uçot hesabları üzrə vəsaitlərin hərəkətinə nəzarəti həyata keçirmək, aparılmış əməliyyatların vergi orqanında olan baza məlumatları və digər mənbələr əsasında qarşılıqlı təhlilini aparmaq, belə vəsaitlərdən istifadə zamanı sui-istifadə hallarına yol verilməməsi məqsədilə zəruri tədbirlər görmək;

3.0.20. Vergilərin ödənilməsindən yayınan şəxslərin aşkar olunması məqsədilə vergi ödəyicilərinin qarşılıqlı əlaqələrinin təhlili işlərini aparmaq və aparılan təhlilin nəticələrinə əsasən nazirliyin rəhbərliyinə məlumat vermək;

3.0.21. Elektron vergi hesab-fakturaları və elektron qaimə-fakturaları ilə əlaqədar məlumat bazasının yaradılmasına, daxil olmuş məlumatların təhlilinə, onların tətbiqinə, uçotuna və istifadəsinə nəzarət etmək;

3.0.22. "Tax Free" sisteminin tətbiqi ilə əlaqədar və Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması məqsədilə satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərinin təhlilini aparmaq;

3.0.23. İdarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin "Giriş-çıxış və qeydiyyat" və "Sərhədkeçməyə məhdudiyyət siyahısı" altsistemləri vasitəsi ilə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər həyata keçirmək;

3.0.24. "Tax Free" sisteminin tətbiqi və Ticarət festivalları ilə əlaqədar vahid operator qismində vergi orqanlarının fəaliyyətinə nəzarət etmək;

3.0.25. Nazirliyin məlumat bazasında mövcud olan, həmçinin vergi orqanlarından, aidiyyəti dövlət orqanlarından və digər şəxslərdən daxil olmuş məlumatların keyfiyyətlə emal edilməsini, yalnız kənarlaşma aşkar edilən vergi ödəyiciləri barədə məlumatların onların nəzarət sahəsinə aid olan strukturlara göndərilməsini, strukturlardan həmin məlumatlar əsasında görülmüş tədbirlərin nəticələrinin alınmasını, görülmüş işlərin effektivliyinin təhlil edilməsini və nəticəsi üzrə rübdə bir dəfədən az olmayaraq hesabatların hazırlanaraq

nazirliyin rəhbərliyinə təqdim edilməsini təmin etmək;

3.0.26. Vergidən, habelə sığorta haqlarından yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi və əlavə vergi potensialının müəyyən edilməsi sahəsində tədbirlər görmək və onlara nəzarəti təşkil etmək;

3.0.27. Vergi ödəyicilərinin vergidən yayınma risklərinin təhlilini aparmaq və onların aradan qaldırılması ilə əlaqədar təkliflər vermək;

3.0.28. Vergi ödəyiciləri üzrə müxtəlif risk meyarlarını müəyyənləşdirmək və qiymətləndirmək;

3.0.29. Risk meyarları nəzərə alınmaqla müxtəlif sahələr üzrə təhlillər aparmaq və nəticəsindən asılı olaraq müvafiq təkliflər vermək;

3.0.30. Vergi nəzarəti tədbirləri keçirilmiş vergi ödəyiciləri üzrə vergidən yayınma hallarının gələcəkdə təkrarlanmaması məqsədilə təhlillər aparmaq;

3.0.31. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən yayınma risklərini təhlil etmək;

3.0.32. Bəyannamələrin, hesabatların, arayışların və onların əlavələrinin formalarının, tərtib edilmə qaydalarının hazırlanmasını və təkmilləşdirilməsini təmin etmək;

3.0.33. Elektron və kağız formada təqdim edilmiş bəyannamələrin, hesabatların və arayışların AVİS-ə işlənməsini və aidiyyəti üzrə yaranmış texniki problemlərin aradan qaldırılmasını təşkil və təmin etmək;

3.0.34. Bəyannamələrin və hesabatların elektron qaydada uyğunsuzluq yoxlamasından keçirilməsini və bununla əlaqədar məktubların vergi ödəyicilərinə göndərilməsini təşkil və bu işə nəzarət etmək;

3.0.35. Kameral vergi yoxlamalarının aparılması işlərini təşkil və həmin işlərə nəzarət etmək;

3.0.36. “Hesabat və Axtarış” informasiya sistemində bəyannamə ilə bağlı formalaşan hesabatların düzgünlüyünü təhlil etmək;

3.0.37. Cari vergilərin hesablanmasını təmin və təşkil etmək;

3.0.38. İcarəyə verilmiş dövlət torpaqlarının icarə haqqının şəxsi hesab-vərəqələrinə işlənməsini təşkil etmək;

3.0.39. Kameral vergi yoxlamalarının nəticələrini təhlil etmək, kameral hesablamalardan daxilolmalara nəzarət etmək;

3.0.40. Bəyannamələrdə və hesabatlarda müəyyənləşdirilməsi mürəkkəblik təşkil edən vergidən yayınma halları ilə bağlı kənarlaşmaların elektron qaydada uyğunsuzluqlarının yaradılması işlərini təşkil etmək və aktuallığını itirmiş elektron uyğunsuzluqlar üzrə aidiyyəti işləri həyata keçirmək;

3.0.41. Əlaqəli məlumatlar əsasında vergi ödəyicilərinin müvafiq vergi növləri, habelə sığorta haqları üzrə öhdəlikləri barədə məlumatların şəxsi hesab-vərəqəsinə daxil edilməsi işlərinə nəzarət etmək;

3.0.42. Kameral vergi yoxlaması başa çatdıqdan sonra Vergi Məcəlləsinin 72.5-ci maddəsində nəzərdə tutulmuş dəqiqləşdirilmiş bəyannamənin və hesabatın təqdim edilməsi barədə bildirişlərin göndərilməsinə nəzarət etmək;

3.0.43. Dövlət müəssisələrinin təqdim etdikləri bəyannamələrdə və hesabatlarda əks etdirdikləri dövlət büdcəsinin investisiya xərcləri hesabına ayrılmış vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlərin amortizasiyasının qanunvericiliyin tələblərinə uyğun olaraq

gəlirdən çıxılmasına aidiyyəti üzrə nəzarət etmək;

3.0.44. Bəyannamə göstəricilərinin şəxsi-hesab vərəqələrinə düzgün daxil edilməsinə nəzarət etmək;

3.0.45. Bəyannamələrin və hesabatların elektron yoxlanılmasının düzgünlüyünü araşdırmaq və bu sahədə müvafiq tədbirlərin görülməsini təmin etmək;

3.0.46. Təqdim edilmiş bəyannamələrdə və hesabatlarda qeyri-rezidentlərlə bağlı əks etdirilmiş ödənişlərdən, o cümlədən elektron ticarətlə əlaqədar əməliyyatlardan vergilərin qanunvericiliyə uyğun olaraq hesablanmasına aidiyyəti üzrə nəzarət etmək;

3.0.47. Bəyannamə və hesabat formalarının, həmçinin kameral vergi yoxlamalarının səmərəliliyinin artırılması və keyfiyyətinin yüksəldilməsi sahəsində zəruri tədbirləri həyata keçirmək, təkliflər vermək;

3.0.48. Bəyannamələr üzərində yaradılmış elektron uyğunsuzluqların səmərəliliyinin qiymətləndirilməsi, vergitutma baxımından effektivliyi az olan uyğunsuzluqlar üzrə aidiyyəti üzrə təkliflər vermək;

3.0.49. Riskli vergi ödəyiciləri barədə daxil olmuş məlumatlar üzrə kameral vergi yoxlaması tədbirlərinin keçirilməsini təşkil etmək;

3.0.50. Kameral vergi yoxlaması aparılan vergi ödəyiciləri üzrə vergidən, habelə sığorta haqlarından yayınma hallarının gələcəkdə təkrarlanmaması və qarşısının alınması məqsədilə təhlillər aparmaq;

3.0.51. Kameral vergi yoxlaması üzrə nəzarətin formalarının müəyyən edilməsi üçün parametrlərin müəyyən edilməsini və avtomatlaşdırılmasını təmin etmək;

3.0.52. Kameral vergi yoxlaması üzrə aparılmış nəzarət tədbirlərinin nəticələrinin qiymətləndirmək və nəticəsinə uyğun olaraq kameral vergi yoxlamalarının təyin edilməsi meyarlarının müəyyən edilməsini və avtomatlaşdırılmasını təmin etmək;

3.0.53. Aşkar edilmiş uyğunsuzluqlar üzrə təyin edilmiş kameral vergi yoxlaması tədbirlərinə nəzarət etmək;

3.0.54. Vergidən, habelə sığorta haqlarından yayınma halları üzrə müəyyən olunan risklərin idarə edilməsi ilə bağlı mütəmadi olaraq prosedurların proqramlaşdırılmasını və avtomatlaşdırılmasını həyata keçirmək;

3.0.55. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən, habelə sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydada müəyyən edilməsini təşkil etmək;

3.0.56. Sığorta haqlarını ödəməkdən yayınma halları üzrə mütəmadi risk istiqamətlərini müəyyən etmək və təhlil etmək;

3.0.57. Sığorta haqlarını ödəməkdən yayınma hallarının qarşısının alınması sahəsində istiqamətləri müəyyən etmək və onlara nəzarət etmək;

3.0.58. Sığorta haqları ilə bağlı hesabatların formalarının, tərtib edilmə qaydalarının hazırlanmasını və təkmilləşdirilməsini təmin etmək;

3.0.59. Əlaqəli məlumatlar əsasında vergi ödəyicilərinin sığorta haqları üzrə öhdəlikləri barədə məlumatlarının düzgün olaraq şəxsi hesab-vərəqəsinə daxil edilməsi işlərinə nəzarət etmək;

3.0.60. Elektron və kağız formada təqdim edilmiş sığorta haqları ilə bağlı hesabatların AVİS-ə işlənməsini və aidiyyəti üzrə yaranmış texniki problemlərin aradan qaldırılmasını təşkil etmək;

3.0.61. “Hesabat və Axtarış” informasiya sistemində sığorta haqları ilə bağlı formalaşan hesabatların düzgünlüyünü təhlil etmək;

3.0.62. Növbəti il üzrə sığorta haqları üzrə gəlirlərin göstəricilərinə uyğun olaraq proqnozun müəyyən edilməsi ilə bağlı təkliflər vermək;

3.0.63. Sığorta haqları üzrə vergi orqanlarına həvalə edilən proqnozun yerinə yetirilməsinə nəzarət etmək;

3.0.64. Sığorta haqları üzrə vergi ödəyici tərəfindən təqdim olunan gündəlik operativ məlumatları müvafiq tarixlərin məlumatları ilə müqayisəsini aparmaq;

3.0.65. Sığorta haqları üzrə proqnozu icra etməyən vergi orqanları və vergi əməkdaşları barədə müvafiq tədbirlərin görülməsi üçün nazirliyin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

3.0.66. Sığorta haqları ilə bağlı lazımi məlumatların əldə edilməsi məqsədi ilə aidiyyəti dövlət və vergi orqanlarına sorğular ünvanlandırmaq;

3.0.67. Sığorta haqları üzrə təqdim olunmuş hesabat məlumatlarını mülkiyyət növlərinə və digər təyinatlara görə təhlil etmək;

3.0.68. Sığorta haqları ilə bağlı hesabat məlumatlarının müvafiq baza məlumatları ilə təhlilini aparmaq;

3.0.69. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydaları barədə təklif vermək;

3.0.70. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının departamentin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

3.0.71. Bu əsasnamə ilə departamentin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət, təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

3.0.72. Bu əsasnamə ilə departamentin səlahiyyətinə aid edilmiş məsələlər üzrə inzibati xəta haqqında işlərə baxmaq və müvafiq qərar qəbul etmək;

3.0.73. Departamentin səlahiyyətləri daxilində digər nazirlik və idarələrin müvafiq bölmələri ilə işlərin koordinasiyasını təmin etmək;

3.0.74. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.0.75. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.0.76. Funksional tabeliyində olan strukturların fəaliyyətinin təşkil edilməsinə və icrasına nəzarət etmək;

3.0.77. Departamentin strukturlarının iş planlarının tərtib edilməsinə və icrasına nəzarət etmək;

3.0.78. Departamentdə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

3.0.79. Departamentin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

3.0.80. Görülmüş işlərin nəticələri barədə nazirlik tərəfindən müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və vaxtında aidiyyəti üzrə nazirliyin rəhbərliyinə təqdim etmək;

3.0.81. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

3.0.82. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.83. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.0.84. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Departamentin hüquqları

4.0. Departament öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Prosedurların pozulması və daxilolmalara təsir edən vergi hesabatlarının təhrif olunması halları aşkar edildikdə vergi ödəyicilərinin uçotda olduqları vergi orqanlarına nöqsanların aradan qaldırılması barədə göstərişlərin verilməsi və onların yerinə yetirilməsinin tələb edilməsi barədə rəhbərlik qarşısında məsələ qaldırmaq;

4.0.2. Proqnozların yerinə yetirilməsi, bəyannamələrin kameral yoxlanılması ilə əlaqədar olaraq yerli vergi orqanlarında monitorinq həyata keçirmək;

4.0.3. Kameral vergi yoxlaması üzrə görülən işlərin təkmilləşdirilməsi və yoxlama tədbirlərinin keyfiyyətinin artırılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi barədə rəhbərliyə təkliflər hazırlamaq;

4.0.4. Real vergi potensialına dair müvafiq təkliflər hazırlamaq və bununla bağlı rəhbərliyə təkliflər vermək;

4.0.5. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

4.0.6. Vergi nəzarəti sahəsi üzrə aparılan yoxlamaların səmərəliliyinin artırılması ilə bağlı təkliflər vermək;

4.0.7. Vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarının və qərarlarının ləğv edilməsi barədə aidiyyəti üzrə təkliflər vermək;

4.0.8. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.9. Sığorta haqlarının yığımında nöqsana yol vermiş müvafiq vəzifəli vergi əməkdaşlarının izahatlarını almaq, nöqsana yol vermiş vəzifəli şəxslərin intizam məsələsinə baxılması barədə təkliflər vermək;

4.0.10. Vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasının tələb edilməsi üçün təkliflər hazırlamaq;

4.0.11. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi orqanlarına tövsiyələr vermək

üçün təkliflər hazırlamaq;

4.0.12. Uçot-hesabat işlərində istifadə olunan hesabat formalarının təkmilləşdirilməsi məqsədilə təkliflər vermək;

4.0.13. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

4.0.14. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

4.0.15. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.0.16. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.17. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Departamentin fəaliyyətinin təşkili

5.1. Departamentin strukturunu və işçilərinin sayını Azərbaycan Respublikasının vergilər naziri (bundan sonra - vergilər naziri) təsdiq edir.

5.2. Departamentin strukturuna 3 idarə (Təhlil və proqnozlaşdırma idarəsi, Bəyannamələr idarəsi, Sosial sığorta ödənişlərinə nəzarət və təhlil idarəsi) daxildir. Təhlil və proqnozlaşdırma idarəsinin tərkibinə 4 şöbə (Daxilolmaların təhlili şöbəsi, Risklərin təhlili şöbəsi, Proqnozlaşdırma şöbəsi və Qarşılıqlı əməliyyatların təhlili şöbəsi), Bəyannamələr idarəsinin tərkibinə 2 şöbə (Kameral vergi yoxlamalarına nəzarət şöbəsi və Bəyannamələrin təhlili şöbəsi), Sosial sığorta ödənişlərinə nəzarət və təhlil idarəsinin tərkibinə isə 2 şöbə (Sosial sığorta ödənişlərinin təhlili şöbəsi və Sosial sığorta öhdəliklərinin icrasına nəzarət şöbəsi) daxildir.

5.3. Departamentin fəaliyyətinə vergilər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (baş direktor) rəhbərlik edir. Baş direktor departamentə həvalə edilmiş vəzifələrin və hüquqların yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Baş direktorun vergilər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Baş direktorun müavinləri onlara baş direktor tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar. Baş direktor olmadıqda onun funksiyalarını baş direktorun müavinlərindən biri həyata keçirir.

5.5. Departamentin digər vəzifəli şəxsləri vergilər naziri və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

## 6. Vəzifəli şəxslərin səlahiyyət bölgüsü, cavabdehlik və məsuliyyət

6.1. Baş direktor:

6.1.1. Müvafiq sahədə departamentin nəzarət sahəsinə aid olan struktur bölmələrin fəaliyyətində effektivliyin təmin edilməsi, onların işlərinə əməli köməkliyin göstərilməsi və görülən işlərə gündəlik nəzarətin təşkil edilməsi məqsədilə departamentin əməkdaşları arasında vergi orqanları üzrə kuratorları müəyyən edir;

6.1.2. Departamentin işini təşkil edir və ona rəhbərlik edir;

6.1.3. Tabeliyində olan vəzifəli şəxslər tərəfindən əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

6.1.4. Baş direktorun müavinləri arasında vəzifə bölgüsü aparır, müvafiq fəaliyyət sahələrinin idarə olunmasını onlara həvalə edir;

6.1.5. Departamentə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri təsdiq edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsinə nəzarət edir;

6.1.6. Departament üzrə nazirliyin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini nazirliyin rəhbərliyinə təqdim edir;

6.1.7. Bu Əsasnamənin 1.2-ci bəndində göstərilən normativ-hüquqi aktların vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

6.1.8. Departamentin və funksiaonal tabeliyində olan vəzifəli şəxsləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün nazirliyin rəhbərliyinə təqdimatlar verir;

6.1.9. Departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi məqsədilə Vergilər Nazirliyinin bütün strukturlarından zəruri məlumat və sənədləri əldə edir;

6.1.10. Departamentə daxil olan müraciətlərin baxılmasını təşkil edir, habelə daxili sənədlərin və inzibati xəta haqqında iş üzrə qərarların imzalanmasını həyata keçirir;

6.1.11. Departamenti təmsil edir.

6.2. Baş direktor, müavinləri, idarə direktorları, şöbə rəhbərləri işçi qüvvəsindən səmərəli istifadə edilməsi məqsədilə iş stajı və peşəkarlıq səviyyələrini nəzərə almaqla hər bir əməkdaş üzrə iş bölgüsünü müəyyən edir, onları əlaqələndirir, işlərin həyata keçirilməsini təşkil edir, həmin işlərin effektiv və qanunvericiliyin tələblərinə uyğun şəkildə icrasına nəzarət edir və buna görə bilavasitə cavabdehdirlər.

6.3. Departamentin işçiləri bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 7. Departamentin strukturuna daxil olan idarə və şöbələrin vəzifə və hüquqları

### 7.1. Təhlil və proqnozlaşdırma idarəsinin vəzifələri aşağıdakılardır:

7.1.1. İdarənin işi ilə bağlı vergi orqanlarının məlumatları üzrə hesabat göstəriciləri sistemini, hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

7.1.2. Büdcəyə daxil olan vergilər və sair daxilolmalar, habelə sığorta haqları üzrə daxilolmalar haqqında vergi orqanlarının məlumatlarını yerli xəzinədarlıq orqanlarının məlumatları ilə üzləşdirmək;

7.1.3. Vergiləri, habelə sığorta haqları və sair daxilolmaları ərazilərə, iri vergi ödəyicilərinə, mülkiyyət növlərinə və vergi ödənişlərinin təyinatına görə təhlil etmək;

7.1.4. Vergilər, habelə sığorta haqları üzrə proqnozlar və daxilolmalar ilə əlaqədar dövlət orqanlarına təqdim olunmalı məlumatların hazırlanması üçün müvafiq işlərin aparılmasını təmin etmək;

7.1.5. Sığorta haqları üzrə daxilolmalar, dövlət büdcəsinə hesablanmış və daxil olmuş vergilər və sair daxilolmalar barədə, habelə dövlət büdcəsinə ödəmələr üzrə

proqnozun yerinə yetirilməsinin operativ təhlilini aparmaq;

7.1.6. “Tax Free” sisteminin tətbiqi ilə əlaqədar hər ay üzrə qaytarılmış ƏDV məbləği barədə rəyin növbəti ayın 5-dən gec olmayaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etmək;

7.1.7. Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması məqsədilə müvafiq dövrlər üzrə qaytarılmış ƏDV məbləği barədə rəyin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etmək;

7.1.8. Vergilər, habelə sığorta haqları üzrə proqnoz və daxilolmalar haqqında müvafiq məlumatların, habelə vergi nəzarəti tədbirləri və vergi cinayətləri üzrə dövlət büdcəsinə və aidiyyəti fondlara ödənilən vəsaitlər barədə məlumatları hazırlamaq və nazirliyin rəhbərliyinə təqdim etmək;

7.1.9. Vergitutma bazasının, vergi potensialının və büdcəyə daxilolmaların Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyəti səciyyələndirən makro və mikroiqtisadi göstəricilərlə müqayisə etməklə təhlilini aparmaq, vergilər, rüsumlar və sair daxilolmalar üzrə proqnozları hazırlamaq;

7.1.10. Ölkənin makro və mikroiqtisadi göstəricilərinin təhlili əsasında vergi potensialı və vergitutma bazası barədə departamentin rəhbərliyinə məlumat hazırlamaq;

7.1.11. İnzibati-ərazi vahidlərinin vergitutma bazası və vergi potensialını müəyyənləşdirməklə onları səciyyələndirən göstəricilər sistemini hazırlamaq, həmin sistem əsasında daxilolmaların dəyişməsinə təsir edən amilləri müəyyən edən hesablamaları aparmaq, habelə daxilolmaların vergi potensialına və vergitutma bazasına uyğunluğunu müəyyən etmək;

7.1.12. Dövlət büdcəsinə tədiyyələr, sektorlar üzrə vergi daxilolmaları proqnozunun yerinə yetirilməsinin təhlilini aparmaq və proqnozu yerinə yetirməyən vergi orqanları barəsində qanunamüvafiq tədbirlərin görülməsi barədə departamentin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

7.1.13. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının növbəti illər üzrə dövlət büdcəsinin layihəsinin hazırlanması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim ediləcək məlumatları hazırlamaq;

7.1.14. Dövlət büdcəsi gəlirlərinin nazirlik tərəfindən təmin edilən daxilolmalarına dair zəruri məlumatları icmallaşdıraraq büdcə layihəsi barədə təklifləri hazırlamaq;

7.1.15. Ölkənin sosial-iqtisadi inkişafını və vergi daxilolmalarını xarakterizə edən müvafiq göstəriciləri mütəmadi olaraq hazırlamaq;

7.1.16. Vergi orqanları tərəfindən aparılmış müşahidələrdə qeydə alınmış malların (işlərin, xidmətlərin) orta bazar qiymətləri barədə AVİS-ə işlənilmiş məlumatların təhlilini aparmaq, informasiya bazasının məlumatlarının genişləndirilməsini təmin etmək;

7.1.17. Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyəti səciyyələndirən göstəricilərin müqayisəli təhlilini aparmaqla növbəti il üzrə sığorta haqları üzrə gəlirlərin göstəricilərinə uyğun olaraq proqnozu hazırlamaq;

7.1.18. Dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satınalınma müqavilələri ilə bağlı məlumatları təhlil etmək və riskləri müəyyən edərək vergidən yayınmaya şərait yaradan hallarla bağlı aşkar edilmiş kənarlaşmalar üzrə zəruri tədbirlərin görülməsi üçün nəzarət işlərini təşkil etmək;

7.1.19. ƏDV sub-uçot hesabları üzrə vəsaitlərin hərəkətinə nəzarəti həyata keçirmək, aparılmış əməliyyatların vergi orqanında olan baza məlumatları və digər mənbələr əsasında qarşılıqlı təhlilini aparmaq, belə vəsaitlərdən istifadə zamanı sui-istifadə hallarına yol verilməməsi məqsədilə zəruri tədbirlər görmək;

7.1.20. Vergilərin ödənilməsindən yayınan şəxslərin aşkar olunması məqsədilə vergi ödəyicilərinin qarşılıqlı əlaqələrinin təhlili işlərini aparmaq və aparılan təhlilin nəticələrinə əsasən Departamentin rəhbərliyinə məlumat vermək;

7.1.21. Elektron vergi hesab-fakturaları və elektron qaimə-fakturaları ilə əlaqədar məlumat bazasının yaradılmasına, daxil olmuş məlumatların təhlilinə, onların tətbiqinə, uçotuna və istifadəsinə nəzarət etmək;

7.1.22. “Tax Free” sisteminin tətbiqi ilə əlaqədar və Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması məqsədilə satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərinin təhlilini aparmaq;

7.1.23. İdarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin “Giriş-çıxış və qeydiyyat” və “Sərhədkeçməyə məhdudiyyət siyahısı” altsistemləri vasitəsi ilə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər həyata keçirmək;

7.1.24. “Tax Free” sisteminin tətbiqi və Ticarət festivalları ilə əlaqədar vahid operator qismində vergi orqanlarının fəaliyyətinə nəzarət etmək;

7.1.25. Nazirliyin məlumat bazasında mövcud olan, həmçinin vergi orqanlarından, aidiyyəti dövlət orqanlarından və digər şəxslərdən daxil olmuş məlumatların keyfiyyətlə emal edilməsini, yalnız kənarlaşma aşkar edilən vergi ödəyiciləri barədə məlumatların onların nəzarət sahəsinə aid olan strukturlara göndərilməsini, strukturlardan həmin məlumatlar əsasında görülmüş tədbirlərin nəticələrinin alınmasını, görülmüş işlərin effektivliyinin təhlil edilməsini və nəticəsi üzrə rübdə bir dəfədən az olmayaraq hesabatların hazırlanaraq departamentin rəhbərliyinə təqdim edilməsini təmin etmək;

7.1.26. Vergidən yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi və əlavə vergi potensialının müəyyən edilməsi sahəsində tədbirlər görmək və onlara nəzarəti təşkil etmək;

7.1.27. Vergi ödəyicilərinin vergidən yayınma risklərinin təhlilini aparmaq və onların aradan qaldırılması ilə əlaqədar təkliflər vermək;

7.1.28. Vergi ödəyiciləri üzrə müxtəlif risk meyarlarını müəyyənləşdirmək və qiymətləndirmək;

7.1.29. Risk meyarları nəzərə alınmaqla müxtəlif sahələr üzrə təhlillər aparmaq və nəticəsindən asılı olaraq müvafiq təkliflər vermək;

7.1.30. Vergi nəzarəti tədbirləri keçirilmiş vergi ödəyiciləri üzrə vergidən yayınma hallarının gələcəkdə təkrarlanmaması məqsədilə təhlillər aparmaq;

7.1.31. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən yayınma risklərini təhlil etmək;

7.1.32. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının idarənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.1.33. Bu əsasnamə ilə İdarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.1.34. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.1.35. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.1.36. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.1.37. İdarə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və departamentin rəhbərliyinə təqdim etmək;

7.1.38. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.1.39. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.1.40. Səlahiyyətləri daxilində müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.1.41. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.2. Təhlil və proqnozlaşdırma idarəsinin hüquqları aşağıdakılardır:**

7.2.1. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.2.2. Uçot-hesabat işlərində istifadə olunan hesabat formalarının təkmilləşdirilməsi məqsədilə təkliflər vermək;

7.2.3. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün departamentin rəhbərliyinə təkliflər vermək;

7.2.4. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.2.5. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.2.6. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.2.7. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.2.8. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları

həyata keçirmək.

**7.3. Daxilolmaların təhlili şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.3.1. Şöbənin işi ilə bağlı vergi orqanlarının məlumatları üzrə hesabat göstəriciləri sistemini, hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

7.3.2. Büdcəyə daxil olan vergilər və sair daxilolmalar, habelə sığorta haqları üzrə daxilolmalar haqqında vergi orqanlarının məlumatlarını yerli xəzinədarlıq orqanlarının məlumatları ilə üzləşdirmək;

7.3.3. Vergiləri, sığorta haqlarını və sair daxilolmaları ərazilərə, iri vergi ödəyicilərinə, mülkiyyət növlərinə və vergi ödənişlərinin təyinatına görə təhlil etmək;

7.3.4. Vergilər, habelə sığorta haqları üzrə proqnozlar və daxilolmalar ilə əlaqədar dövlət orqanlarına təqdim olunmalı məlumatların hazırlanması üçün müvafiq işlərin aparılmasını təmin etmək;

7.3.5. Sığorta haqları üzrə daxilolmalar, dövlət büdcəsinə hesablanmış və daxil olmuş vergilər və sair daxilolmalar barədə, habelə dövlət büdcəsinə ödəmələr üzrə proqnozun yerinə yetirilməsinin operativ təhlilini aparmaq;

7.3.6. “Tax Free” sisteminin tətbiqi ilə əlaqədar hər ay üzrə qaytarılmış ƏDV məbləği barədə rəyin növbəti ayın 5-dən gec olmayaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etmək;

7.3.7. Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması məqsədilə müvafiq dövrlər üzrə qaytarılmış ƏDV məbləği barədə rəyin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etmək;

7.3.8. Vergilər, habelə sığorta haqları üzrə proqnoz və daxilolmalar haqqında müvafiq məlumatların, habelə vergi nəzarəti tədbirləri və vergi cinayətləri üzrə dövlət büdcəsinə və aidiyyəti fondlara ödənilən vəsaitlər barədə məlumatları hazırlamaq və nazirliyin rəhbərliyinə təqdim etmək;

7.3.9. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.3.10. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.3.11. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.3.12. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.3.13. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz

səlahiyyətləri daxilində təkliflər vermək;

7.3.14. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.3.15. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.3.16. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.3.17. Səlahiyyətləri daxilində müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.3.18. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.4. Daxilolmaların təhlili şöbəsinin hüquqları aşağıdakılardır:**

7.4.1. Uçot-hesabat işlərində istifadə olunan hesabat formalarının təkmilləşdirilməsi məqsədilə təkliflər vermək;

7.4.2. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.4.3. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.4.4. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.4.5. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.4.6. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.4.7. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.4.8. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.5. Proqnozlaşdırma şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.5.1. Şöbənin işi ilə bağlı vergi və digər orqanların məlumatlarına əsasən müxtəlif məlumat bazalarını yaratmaq;

7.5.2. Vergitutma bazasının, vergi potensialının və büdcəyə daxilolmaların Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyəti səciyyələndirən makro və mikroiqtisadi göstəricilərlə müqayisə etməklə təhlilini aparmaq, vergilər, rüsumlar və sair daxilolmalar üzrə proqnozları hazırlamaq;

7.5.3. Ölkənin makro və mikroiqtisadi göstəricilərinin təhlili əsasında vergi potensialı və vergitutma bazası barədə idarənin rəhbərliyinə məlumat hazırlamaq;

7.5.4. İnzibati-ərazi vahidlərinin vergitutma bazası və vergi potensialını

müəyyənləşdirməklə onları səciyyələndirən göstəricilər sistemini hazırlamaq, həmin sistem əsasında daxilolmaların dəyişməsinə təsir edən amilləri müəyyən edən hesablamaları aparmaq, habelə daxilolmaların vergi potensialına və vergitutma bazasına uyğunluğunu müəyyən etmək;

7.5.5. Dövlət büdcəsinə tədiyyələr, sektorlar üzrə vergi daxilolmaları proqnozunun yerinə yetirilməsinin təhlilini aparmaq və proqnozu yerinə yetirməyən vergi orqanları barəsində qanunamüvafiq tədbirlərin görülməsi barədə idarənin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

7.5.6. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının növbəti illər üzrə dövlət büdcəsinin layihəsinin hazırlanması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim ediləcək məlumatları hazırlamaq;

7.5.7. Dövlət büdcəsi gəlirlərinin nazirlik tərəfindən təmin edilən daxilolmalarına dair zəruri məlumatları icmallaşdıraraq büdcə layihəsi barədə təklifləri hazırlamaq;

7.5.8. Ölkənin sosial-iqtisadi inkişafını və vergi daxilolmalarını xarakterizə edən müvafiq göstəriciləri mütəmadi olaraq hazırlamaq;

7.5.9. Vergi orqanları tərəfindən aparılmış müşahidələrdə qeydə alınmış malların (işlərin, xidmətlərin) orta bazar qiymətləri barədə AVİS-ə işlənilmiş məlumatların təhlilini aparmaq, informasiya bazasının məlumatlarının genişləndirilməsini təmin etmək;

7.5.10. Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyəti səciyyələndirən göstəricilərin müqayisəli təhlilini aparmaqla növbəti il üzrə sığorta haqları üzrə gəlirlərin göstəricilərinə uyğun olaraq proqnozu hazırlamaq;

7.5.11. Dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satınalınma müqavilələri ilə bağlı məlumatları təhlil etmək və riskləri müəyyən edərək vergidən yayınmaya şərait yaradan hallarla bağlı aşkar edilmiş kənarlaşmalar üzrə zəruri tədbirlərin görülməsi üçün nəzarət işlərini təşkil etmək;

7.5.12. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.5.13. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.5.14. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.5.15. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.5.16. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz

səlahiyyətləri daxilində təkliflər vermək;

7.5.17. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.5.18. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.5.19. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.5.20. Müvafiq sahədə (səlahiyyətləri daxilində) normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.5.21. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.6. Proqnozlaşdırma şöbəsinin hüquqları aşağıdakılardır:**

7.6.1. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.6.2. Uçot-hesabat işlərində istifadə olunan hesabat formalarının təkmilləşdirilməsi məqsədilə təkliflər vermək;

7.6.3. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.6.4. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.6.5. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.6.6. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.6.7. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək.

7.6.8. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.7. Qarşılıqlı əməliyyatların təhlili şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.7.1. Şöbənin işi ilə bağlı vergi və digər orqanların məlumatlarına əsasən müxtəlif məlumat bazalarını yaratmaq;

7.7.2. ƏDV sub-uçot hesabları üzrə vəsaitlərin hərəkətinə nəzarəti həyata keçirmək, aparılmış əməliyyatların vergi orqanında olan baza məlumatları və digər mənbələr əsasında qarşılıqlı təhlilini aparmaq, belə vəsaitlərdən istifadə zamanı sui-istifadə hallarına yol verilməməsi məqsədilə zəruri tədbirlər görmək;

7.7.3. Vergilərin ödənilməsindən yayınan şəxslərin aşkar olunması məqsədilə vergi ödəyicilərinin qarşılıqlı əlaqələrinin təhlili işlərini aparmaq və aparılan təhlilin nəticələrinə əsasən İdarənin rəhbərliyinə məlumat vermək;

7.7.4. Elektron vergi hesab-fakturaları və elektron qaimə-fakturaları ilə əlaqədar məlumat bazasının yaradılmasına, daxil olmuş məlumatların təhlilinə, onların tətbiqinə, uçotuna və istifadəsinə nəzarət etmək;

7.7.5. "Tax Free" sisteminin tətbiqi ilə əlaqədar və Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması məqsədilə satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərinin təhlilini aparmaq;

7.7.6. İdarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin "Giriş-çıxış və qeydiyyat" və "Sərhədkeçməyə məhdudiyyət siyahısı" altsistemləri vasitəsi ilə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər həyata keçirmək;

7.7.7. "Tax Free" sisteminin tətbiqi və Ticarət festivalları ilə əlaqədar vahid operator qismində vergi orqanlarının fəaliyyətinə nəzarət etmək;

7.7.8. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.7.9. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.7.10. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.7.11. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.7.12. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.7.13. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.7.14. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.7.15. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.7.16. Müvafiq sahədə (səlahiyyətləri daxilində) normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.7.17. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.8. Qarşılıqlı əməliyyatların təhlili şöbəsinin hüquqları aşağıdakılardır:**

7.8.1. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr

aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.8.2. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.8.3. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.8.4. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.8.5. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.8.6. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək.

7.8.7. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.9. Risklərin təhlili şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.9.1. Nazirliyin məlumat bazasında mövcud olan, həmçinin vergi orqanlarından, aidiyyəti dövlət orqanlarından və digər şəxslərdən daxil olmuş məlumatların keyfiyyətlə emal edilməsini, yalnız kənarlaşma aşkar edilən vergi ödəyiciləri barədə məlumatların onların nəzarət sahəsinə aid olan strukturlara göndərilməsini, strukturlardan həmin məlumatlar əsasında görülmüş tədbirlərin nəticələrinin alınmasını, görülmüş işlərin effektivliyinin təhlil edilməsini və nəticəsi üzrə rübdə bir dəfədən az olmayaraq hesabatların hazırlanaraq idarənin rəhbərliyinə təqdim edilməsini təmin etmək;

7.9.2. Vergidən yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi və əlavə vergi potensialının müəyyən edilməsi sahəsində tədbirlər görmək və onlara nəzarəti təşkil etmək;

7.9.3. Vergi ödəyicilərinin vergidən yayınma risklərinin təhlilini aparmaq və onların aradan qaldırılması ilə əlaqədar təkliflər vermək;

7.9.4. Vergi ödəyiciləri üzrə müxtəlif risk meyarlarını müəyyənləşdirmək və qiymətləndirmək;

7.9.5. Risk meyarları nəzərə alınmaqla müxtəlif sahələr üzrə təhlillər aparmaq və nəticəsindən asılı olaraq müvafiq təkliflər vermək;

7.9.6. Vergi nəzarəti tədbirləri keçirilmiş vergi ödəyiciləri üzrə vergidən yayınma hallarının gələcəkdə təkrarlanmaması məqsədilə təhlillər aparmaq;

7.9.7. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən yayınma risklərini təhlil etmək;

7.9.8. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.9.9. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.9.10. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.9.11. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.9.12. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.9.13. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.9.14. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.9.15. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.9.16. Müvafiq sahədə (səlahiyyətləri daxilində) normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.9.17. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.10. Risklərin təhlili şöbəsinin hüquqları aşağıdakılardır:**

7.10.1. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.10.2. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.10.3. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.10.4. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.10.5. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.10.6. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək.

7.10.7. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.11. Bəyannamələr idarəsinin vəzifələri aşağıdakılardır:**

7.11.1. İdarənin işi ilə bağlı vergi orqanlarının məlumatları üzrə hesabat göstəricilərini hazırlamaq və hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

7.11.2. Bəyannamələrin, hesabatların, arayışların və onların əlavələrinin formalarının, tərtib edilmə qaydalarının hazırlanmasını və təkmilləşdirilməsini təmin etmək;

7.11.3. Elektron və kağız formada təqdim edilmiş bəyannamələrin, hesabatların və arayışların AVİS-ə işlənməsini və aidiyyəti üzrə yaranmış texniki problemlərin aradan qaldırılmasını təşkil və təmin etmək;

7.11.4. Bəyannamələrin və hesabatların elektron qaydada uyğunsuzluq yoxlamasından keçirilməsini və bununla əlaqədar məktubların vergi ödəyicilərinə göndərilməsini təşkil və işə nəzarət etmək;

7.11.5. Kameral vergi yoxlamalarının aparılması işlərini təşkil və nəzarət etmək;

7.11.6. "Hesabat və Axtarış" informasiya sistemində bəyannamə ilə bağlı formalaşan hesabatların düzgünlüyünü təhlil etmək;

7.11.7. Cari vergilərin hesablanmasını təmin və təşkil etmək;

7.11.8. İcarəyə verilmiş dövlət torpaqlarının icarə haqqının şəxsi hesab-vərəqələrinə işlənməsini təşkil etmək;

7.11.9. Vergidən, habelə sığorta haqlarından yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi sahəsində aidiyyəti tədbirlər görmək və onlara nəzarət etmək;

7.11.10. Kameral vergi yoxlamalarının nəticələrini təhlil etmək, kameral hesablamalardan daxilolmalara nəzarət etmək;

7.11.11. Bəyannamələrdə və hesabatlarda müəyyənləşdirilməsi mürəkkəblik təşkil edən vergidən yayınma halları ilə bağlı kənarlaşmaların elektron qaydada uyğunsuzluqlarının yaradılması işlərini təşkil etmək və aktuallığını itirmiş elektron uyğunsuzluqlar üzrə aidiyyəti işləri həyata keçirmək;

7.11.12. Əlaqəli məlumatlar əsasında vergi ödəyicilərinin müvafiq vergi növləri, habelə sığorta haqları üzrə öhdəlikləri barədə məlumatların şəxsi hesab-vərəqəsinə daxil edilməsi işlərinə nəzarət etmək;

7.11.13. Kameral vergi yoxlaması başa çatdıqdan sonra Vergi Məcəlləsinin 72.5-ci maddəsində nəzərdə tutulmuş dəqiqləşdirilmiş bəyannamənin və hesabatın təqdim edilməsi barədə bildirişlərin göndərilməsinə nəzarət etmək;

7.11.14. Dövlət müəssisələrinin təqdim etdikləri bəyannamələrdə və hesabatlarda əks etdirdikləri dövlət büdcəsinin investisiya xərcləri hesabına ayrılmış vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlərin amortizasiyasının qanunvericiliyin tələblərinə uyğun olaraq gəlirdən çıxılmasına aidiyyəti üzrə nəzarət etmək;

7.11.15. Bəyannamə göstəricilərinin şəxsi-hesab vərəqələrinə düzgün daxil edilməsinə nəzarət etmək;

7.11.16. Bəyannamələrin və hesabatların elektron yoxlanılmasının düzgünlüyünü araşdırmaq və bu sahədə müvafiq tədbirlərin görülməsini təmin etmək;

7.11.17. Təqdim edilmiş bəyannamələrdə və hesabatlarda qeyri-rezidentlərlə bağlı əks etdirilmiş ödənişlərdən, o cümlədən elektron ticarətlə əlaqədar əməliyyatlardan vergilərin qanunvericiliyə uyğun olaraq hesablanmasına aidiyyəti üzrə nəzarət etmək;

7.11.18. Bəyannamə və hesabat formalarının, həmçinin kameral vergi

yoxlamalarının səmərəliliyinin artırılması və keyfiyyətinin yüksəldilməsi sahəsində zəruri tədbirləri həyata keçirmək, təkliflər vermək;

7.11.19. Riskli vergi ödəyiciləri barədə daxil olmuş məlumatlar üzrə kameral vergi yoxlaması tədbirlərinin keçirilməsini təşkil etmək;

7.11.20. Kameral vergi yoxlaması aparılan vergi ödəyiciləri üzrə vergidən, habelə sığorta haqlarından yayınma hallarının gələcəkdə təkrarlanmaması və qarşısının alınması məqsədilə təhlillər aparmaq;

7.11.21. Kameral vergi yoxlaması üzrə nəzarətin formalarının müəyyən edilməsi üçün parametrlərin müəyyən edilməsini və avtomatlaşdırılmasını təmin etmək;

7.11.22. Kameral vergi yoxlaması üzrə aparılmış nəzarət tədbirlərinin nəticələrinin qiymətləndirmək və nəticəsinə uyğun olaraq kameral vergi yoxlamalarının təyin edilməsi meyarlarının müəyyən edilməsini və avtomatlaşdırılmasını təmin etmək;

7.11.23. Aşkar edilmiş uyğunsuzluqlar üzrə təyin edilmiş kameral vergi yoxlaması tədbirlərinə nəzarət etmək;

7.11.24. Vergidən, habelə sığorta haqlarından yayınma halları üzrə müəyyən olunan risklərin idarə edilməsi ilə bağlı mütəmadi olaraq prosedurların proqramlaşdırılmasını və avtomatlaşdırılmasını həyata keçirmək;

7.11.25. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən, habelə sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydada müəyyən edilməsini təşkil etmək;

7.11.26. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının idarənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.11.27. Bu əsasnamə ilə İdarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət, təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.11.28. Bu əsasnamə ilə idarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə inzibati xəta haqqında işlərə baxmaq və müvafiq qərar qəbul etmək;

7.11.29. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.11.30. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.11.31. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.11.32. İdarə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və departamentin rəhbərliyinə təqdim etmək;

7.11.33. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin

və xidməti məlumatların qorunmasını təmin etmək;

7.11.34. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.11.35. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.11.36. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**7.12. Bəyannamələr idarəsinin hüquqları aşağıdakılardır:**

7.12.1. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.12.2. Qanunvericilikdə edilən dəyişikliklərlə əlaqədar və vergidən yayınma risklərinin minimallaşdırılması məqsədilə vergi bəyannamələrinin və hesabatların formalarının təkmilləşdirilməsi haqqında departamentin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.12.3. Bəyannamələr üzərində yaradılmış elektron uyğunsuzluqların səmərəliliyinin qiymətləndirilməsi, vergitutma baxımından effektivliyi az olan uyğunsuzluqlar üzrə aidiyyəti üzrə təkliflər vermək;

7.12.4. Kameral vergi yoxlaması üzrə görülən işlərin təkmilləşdirilməsi və yoxlama tədbirlərinin keyfiyyətinin artırılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi barədə departamentin rəhbərliyinə təkliflər hazırlamaq;

7.12.5. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün departamentin rəhbərliyinə təkliflər vermək;

7.12.6. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.12.7. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.12.8. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.12.9. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.12.10. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.13. Kameral vergi yoxlamalarına nəzarət şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.13.1. Şöbənin işi ilə bağlı vergi orqanlarının məlumatları üzrə hesabat göstəricilərini hazırlamaq və hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

7.13.2. Kameral vergi yoxlamalarının aparılması işlərini təşkil və nəzarət etmək;

7.13.3. Əlaqəli məlumatlar əsasında vergi ödəyicilərinin müvafiq vergi növləri, habelə sığorta haqları üzrə öhdəlikləri barədə məlumatların şəxsi hesab-vərəqəsinə daxil edilməsi işlərinə nəzarət etmək;

7.13.4. Kameral vergi yoxlamalarının nəticələrini təhlil etmək, kameral hesablamalardan daxilolmalara nəzarət etmək;

7.13.5. Bəyannamələrdə və hesabatlarda müəyyənləşdirilməsi mürəkkəblik təşkil edən vergidən yayınma halları ilə bağlı kənarlaşmaların elektron qaydada uyğunsuzluqlarının yaradılması işlərini təşkil etmək və aktuallığını itirmiş elektron uyğunsuzluqlar üzrə aidiyyəti işləri həyata keçirmək;

7.13.6. Vergidən, habelə sığorta haqlarından yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi sahəsində aidiyyəti tədbirlər görmək və onlara nəzarət etmək;

7.13.7. Kameral vergi yoxlaması başa çatdıqdan sonra Vergi Məcəlləsinin 72.5-ci maddəsində nəzərdə tutulmuş dəqiqləşdirilmiş bəyannamənin və hesabatın təqdim edilməsi barədə bildirişlərin göndərilməsinə nəzarət etmək;

7.13.8. Dövlət müəssisələrinin təqdim etdikləri bəyannamələrdə və hesabatlarda əks etdirdikləri dövlət büdcəsinin investisiya xərcləri hesabına ayrılmış vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlərin amortizasiyasının qanunvericiliyin tələblərinə uyğun olaraq gəlirdən çıxılmasına aidiyyəti üzrə nəzarət etmək;

7.13.9. Təqdim edilmiş bəyannamələrdə və hesabatlarda qeyri-rezidentlərlə bağlı əks etdirilmiş ödənişlərdən, o cümlədən elektron ticarətlə əlaqədar əməliyyatlardan vergilərin qanunvericiliyə uyğun olaraq hesablanmasına aidiyyəti üzrə nəzarət etmək;

7.13.10. Bəyannamə və hesabat formalarının, həmçinin kameral vergi yoxlamalarının səmərəliliyinin artırılması və keyfiyyətinin yüksəldilməsi sahəsində zəruri tədbirləri həyata keçirmək, təkliflər vermək;

7.13.11. Bəyannamələrin və hesabatların elektron yoxlanılmasının düzgünlüyünü araşdırmaq və bu sahədə müvafiq tədbirlərin görülməsini təmin etmək;

7.13.12. Riskli vergi ödəyiciləri barədə daxil olmuş məlumatlar üzrə kameral vergi yoxlaması tədbirlərinin keçirilməsini təşkil etmək;

7.13.13. Kameral vergi yoxlaması aparılan vergi ödəyiciləri üzrə vergidən, habelə sığorta haqlarından yayınma hallarının gələcəkdə təkrarlanmaması və qarşısının alınması məqsədilə təhlillər aparmaq;

7.13.14. Kameral vergi yoxlaması üzrə nəzarətin formalarının müəyyən edilməsi üçün parametrlərin müəyyən edilməsini və avtomatlaşdırılmasını təmin etmək;

7.13.15. Kameral vergi yoxlaması üzrə aparılmış nəzarət tədbirlərinin nəticələrinin qiymətləndirmək və nəticəsinə uyğun olaraq kameral vergi yoxlamalarının təyin edilməsi meyarlarının müəyyən edilməsini və avtomatlaşdırılmasını təmin etmək;

7.13.16. Aşkar edilmiş uyğunsuzluqlar üzrə təyin edilmiş kameral vergi yoxlaması tədbirlərinə nəzarət etmək;

7.13.17. Vergidən, habelə sığorta haqlarından yayınma halları üzrə müəyyən olunan risklərin idarə edilməsi ilə bağlı mütəmadi olaraq prosedurların proqramlaşdırılmasını və avtomatlaşdırılmasını həyata keçirmək;

7.13.18. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən, habelə sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydada müəyyən edilməsini təşkil etmək;

7.13.19. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş

tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.13.20. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət, təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.13.21. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə inzibati xəta haqqında işlərə baxmaq və müvafiq qərar qəbul etmək;

7.13.22. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.13.23. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.13.24. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.13.25. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.13.26. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.13.27. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.13.28. Müvafiq sahədə (səlahiyyətləri daxilində) normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.13.29. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**7.14. Kameral vergi yoxlamalarına nəzarət şöbəsinin hüquqları aşağıdakılardır:**

7.14.1. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.14.2. Qanunvericilikdə edilən dəyişikliklərlə əlaqədar və vergidən yayınma risklərinin minimallaşdırılması məqsədilə vergi bəyannamələrinin və hesabatların formalarının təkmilləşdirilməsi haqqında idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.14.3. Kameral vergi yoxlaması üzrə görülən işlərin təkmilləşdirilməsi və yoxlama tədbirlərinin keyfiyyətinin artırılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi barədə idarənin rəhbərliyinə təkliflər hazırlamaq;

7.14.4. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.14.5. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.14.6. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.14.7. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.14.8. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək.

7.14.9. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.15. Bəyannamələrin təhlili şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.15.1. Şöbənin işi ilə bağlı vergi orqanlarının məlumatları üzrə hesabat göstəricilərini hazırlamaq və hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

7.15.2. Bəyannamələrin, hesabatların, arayışların və onların əlavələrinin formalarının, tərtib edilmə qaydalarının hazırlanmasını və təkmilləşdirilməsini təmin etmək;

7.15.3. Elektron və kağız formada təqdim edilmiş bəyannamələrin, hesabatların və arayışların AVİS-ə işlənməsini və aidiyyəti üzrə yaranmış texniki problemlərin aradan qaldırılmasını təşkil və təmin etmək;

7.15.4. Bəyannamələrin və hesabatların elektron qaydada uyğunsuzluq yoxlamasından keçirilməsini və bununla əlaqədar məktubların vergi ödəyicilərinə göndərilməsini təşkil və bu işə nəzarət etmək;

7.15.5. "Hesabat və Axtarış" informasiya sistemində bəyannamə ilə bağlı formalaşan hesabatların düzgünlüyünü təhlil etmək;

7.15.6. Cari vergilərin hesablanmasını təmin və təşkil etmək;

7.15.7. Bəyannamə göstəricilərinin şəxsi-hesab vərəqələrinə düzgün daxil edilməsinə nəzarət etmək;

7.15.8. İcarəyə verilmiş dövlət torpaqlarının icarə haqqının şəxsi hesab-vərəqələrinə işlənməsini təşkil etmək;

7.15.9. Vergidən yayınma hallarının qarşısının alınması və vergitutma bazasının genişləndirilməsi üçün aidiyyəti üzrə tədbirlər görmək;

7.15.10. Zərurət yarandıqda vergi orqanlarının fəaliyyətinin aidiyyəti parametrlər üzrə təhlilini aparmaq və idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.15.11. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.15.12. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi

qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.15.13. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.15.14. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.15.15. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.15.16. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.15.17. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.15.18. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.15.19. Müvafiq sahədə (səlahiyyətləri daxilində) normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.15.20. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**7.16. Bəyannamələrin təhlili şöbəsinin hüquqları aşağıdakılardır:**

7.16.1. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.16.2. Qanunvericilikdə edilən dəyişikliklərlə əlaqədar və vergidən yayınma risklərinin minimallaşdırılması məqsədilə bəyannamələrin və hesabatların formalarının təkmilləşdirilməsi haqqında idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.16.3. Bəyannamələr üzərində yaradılmış elektron uyğunsuzluqların səmərəliliyinin qiymətləndirilməsi, vergitutma baxımından effektivliyi az olan uyğunsuzluqlar üzrə aidiyyəti üzrə təkliflər vermək;

7.16.4. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.16.5. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.16.6. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.16.7. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.16.8. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək.

7.16.9. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları

həyata keçirmək.

**7.17. Sosial sığorta ödənişlərinə nəzarət və təhlil idarəsinin vəzifələri aşağıdakılardır:**

7.17.1. Sığorta haqlarını ödəməkdən yayınma halları üzrə mütəmadi risk istiqamətlərini müəyyən etmək və təhlil etmək;

7.17.2. Sığorta haqlarını ödəməkdən yayınma hallarının qarşısının alınması sahəsində istiqamətləri müəyyən etmək və onlara nəzarət etmək;

7.17.3. Sığorta haqları ilə bağlı hesabatların formalarının, tərtib edilmə qaydalarının hazırlanmasını və təkmilləşdirilməsini təmin etmək;

7.17.4. Əlaqəli məlumatlar əsasında vergi ödəyicilərinin sığorta haqları üzrə öhdəlikləri barədə məlumatlarının düzgün olaraq şəxsi hesab-vərəqəsinə daxil edilməsi işlərinə nəzarət etmək;

7.17.5. Elektron və kağız formada təqdim edilmiş sığorta haqları ilə bağlı hesabatların AVİS-ə işlənməsini və aidiyyəti üzrə yaranmış texniki problemlərin aradan qaldırılmasını təşkil etmək;

7.17.6. “Hesabat və Axtarış” informasiya sistemində sığorta haqları ilə bağlı formalaşan hesabatların düzgünlüyünü təhlil etmək;

7.17.7. Növbəti il üzrə sığorta haqları üzrə gəlirlərin göstəricilərinə uyğun olaraq proqnozun müəyyən edilməsi ilə bağlı təkliflər vermək;

7.17.8. Sığorta haqları üzrə vergi orqanlarına həvalə edilən proqnozun yerinə yetirilməsinə nəzarət etmək;

7.17.9. Sığorta haqları üzrə vergi ödəyici tərəfindən təqdim olunan gündəlik operativ məlumatları müvafiq tarixlərin məlumatları ilə müqayisəsini aparmaq;

7.17.10. Sığorta haqları üzrə proqnozu icra etməyən vergi orqanları və vergi əməkdaşları barədə müvafiq tədbirlərin görülməsi üçün idarənin rəhbərliyinə müvafiq təklifləri vermək;

7.17.11. Sığorta haqları ilə bağlı lazımi məlumatların əldə edilməsi məqsədi ilə aidiyyəti dövlət və vergi orqanlarına sorğular ünvanlandırmaq;

7.17.12. Sığorta haqları üzrə təqdim olunmuş hesabat məlumatlarını mülkiyyət növlərinə və digər təyinatlara görə təhlil etmək;

7.17.13. Sığorta haqları ilə bağlı hesabat məlumatlarının müvafiq baza məlumatları ilə təhlilini aparmaq;

7.17.14. Sığorta haqları üzrə risklərin təhlili və onların minimallaşdırılması işlərini həyata keçirmək;

7.17.15. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydaları barədə təklif vermək;

7.17.16. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının idarənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təmin etmək;

7.17.17. Bu əsasnamə ilə İdarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət,

yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət, təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.17.18. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.17.19. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.17.20. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.17.21. İdarə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və departamentin rəhbərliyinə təqdim etmək;

7.17.22. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.17.23. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.17.24. Səlahiyyətləri daxilində müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.17.25. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**7.18. Sosial sığorta ödənişlərinə nəzarət və təhlil idarəsinin hüquqları aşağıdakılardır:**

7.18.1. Sığorta haqlarını ödəməkdən yayınma risklərinin minimallaşdırılması məqsədilə hesabatların formalarının təkmilləşdirilməsi haqqında departamentin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.18.2. Sığorta haqlarının yığımında nöqsana yol vermiş müvafiq vəzifəli vergi əməkdaşlarının izahatlarını almaq, nöqsana yol vermiş vəzifəli şəxslərin intizam məsələsinə baxılması barədə təkliflər vermək;

7.18.3. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.18.4. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün departamentin rəhbərliyinə təkliflər vermək;

7.18.5. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.18.6. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.18.7. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.18.8. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.18.9. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.19. Sosial sığorta ödənişlərinin təhlili şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.19.1. Sığorta haqlarını ödəməkdən yayınma halları üzrə mütəmadi risk istiqamətlərini müəyyən etmək və təhlil etmək;

7.19.2. Sığorta haqları üzrə gəlirlərin göstəricilərinə uyğun olaraq proqnozun müəyyən edilməsi ilə bağlı təkliflər vermək;

7.19.3. Sığorta haqları ilə bağlı hesabatların formalarının, tərtib edilmə qaydalarının hazırlanmasını və təkmilləşdirilməsini təmin etmək;

7.19.4. Elektron və kağız formada təqdim edilmiş sığorta haqları ilə bağlı hesabatların AVİS-ə işlənməsini və aidiyyəti üzrə yaranmış texniki problemlərin aradan qaldırılmasını təşkil etmək;

7.19.5. “Hesabat və Axtarış” informasiya sistemində sığorta haqları ilə bağlı formalaşan hesabatların düzgünlüyünü təhlil etmək;

7.19.6. Sığorta haqları üzrə təqdim olunmuş hesabat məlumatlarını mülkiyyət növlərinə və digər təyinatlara görə təhlil etmək;

7.19.7. Sığorta haqları ilə bağlı hesabat məlumatlarının müvafiq baza məlumatları ilə təhlilini aparmaq;

7.19.8. Sığorta haqları üzrə risklərinin təhlili və onların minimallaşdırılması işlərini həyata keçirmək;

7.19.9. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydaları barədə təklif vermək;

7.19.10. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.19.11. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.19.12. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.19.13. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.19.14. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.19.15. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.19.16. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.19.17. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.19.18. Səlahiyyətləri daxilində müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.19.19. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**7.20. Sosial sığorta ödənişlərinin təhlili şöbəsinin hüquqları aşağıdakılardır:**

7.20.1. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.20.2. Sığorta haqlarını ödəməkdən yayınma risklərinin minimallaşdırılması məqsədilə hesabatların formalarının təkmilləşdirilməsi haqqında idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.20.3. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.20.4. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.20.5. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.20.6. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.20.7. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.20.8. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.21. Sosial sığorta öhdəliklərinin icrasına nəzarət şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.21.1. Sığorta haqlarını ödəməkdən yayınma hallarının qarşısının alınması sahəsində istiqamətləri müəyyən etmək və onlara nəzarət etmək;

7.21.2. Əlaqəli məlumatlar əsasında vergi ödəyicilərinin sığorta haqları üzrə öhdəlikləri barədə məlumatlarının düzgün olaraq şəxsi hesab-vərəqəsinə daxil edilməsi işlərinə nəzarət etmək;

7.21.3. Sığorta haqları üzrə vergi ödəyici tərəfindən təqdim olunan gündəlik operativ

məlumatları müvafiq tarixlərin məlumatları ilə müqayisəsini aparmaq;

7.21.4. Sığorta haqları üzrə vergi orqanlarına həvalə edilən proqnozun yerinə yetirilməsinə nəzarət etmək;

7.21.5. Sığorta haqları üzrə proqnozu icra etməyən vergi orqanları və vergi əməkdaşları barədə müvafiq tədbirlərin görülməsi üçün idarənin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

7.21.6. Sığorta haqları ilə bağlı lazımi məlumatların əldə edilməsi məqsədi ilə aidiyyəti dövlət və vergi orqanlarına sorğular ünvanlandırmaq;

7.21.7. Sığorta haqları ilə bağlı hesabatların formalarının, tərtib edilmə qaydalarının hazırlanmasını və təkmilləşdirilməsini təmin etmək;

7.21.8. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydaları barədə təklif vermək;

7.21.9. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.21.10. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif və digər sənədlərə (inzibati şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.21.11. Nazirliyin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.21.12. Nazirliyin digər struktur vahidi və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

7.21.13. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

7.21.14. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və idarənin rəhbərliyinə təqdim etmək;

7.21.15. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.21.16. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.21.17. Səlahiyyətləri daxilində müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.21.18. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**7.22. Sosial sığorta öhdəliklərinin icrasına nəzarət şöbəsinin hüquqları aşağıdakılardır:**

7.22.1. Sığorta haqlarını ödəməkdən yayınma risklərinin minimallaşdırılması məqsədilə hesabatların formalarının təkmilləşdirilməsi haqqında idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.22.2. Sığorta haqlarının yığımında nöqsana yol vermiş müvafiq vəzifəli vergi əməkdaşlarının izahatlarını almaq, nöqsana yol vermiş vəzifəli şəxslərin intizam məsələsinə baxılması barədə təkliflər vermək;

7.22.3. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

7.22.4. Müvafiq sahə üzrə nazirliyin struktur vahidi və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq üçün idarənin rəhbərliyinə təkliflər vermək;

7.22.5. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

7.22.6. Müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək və bu sahədə nazirliyin rəhbərliyinə təkliflər vermək;

7.22.7. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

7.22.8. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.22.9. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.